**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 350**

**Bakı şəhəri, 10 avqust 2018-ci il**

**"ASAN ödəniş" sisteminə qoşulmaq üçün texniki tələblər"in və "ASAN ödəniş" sistemindən istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 oktyabr tarixli 341 nömrəli qərarında dəyişiklik edilməsi haqqında**

"Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 26 oktyabr tarixli 341 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1559; 2017, № 2, maddə 305, № 7, maddə 1485; 2018, № 2, maddə 364) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "ASAN ödəniş" sistemindən istifadə Qaydaları"na aşağıdakı məzmunda 4.15-2-ci bənd əlavə edilsin:

"4.15-2. "www.azexport.az" internet portalı vasitəsilə dövlət rüsumunun və digər ödənişlərin həyata keçirilməsi məqsədi ilə sistem portal ilə inteqrasiya olunur.".

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**

Xalq qəzeti.- 2018.- 11 avqust.- S.7.